# MUSİQİ ALƏTLƏRİNİN HAZIRLANMASINDA AĞACIN YERİ

Pərinaz SADIQLI[*]

**Özət:** Mənəvi mədəniyyətin mühüm tərkib hissələrindən biri musiqidir. Musiqi də əsas məqamlardan biri musiqi alətlərinin hazırlaması qaydasıdır. Musiqi alətlərinin hazırlanmasında müxtəlif materiallardan istifadə olunur. Onlardan biri və ən əsası ağacdır. Xüsusilə simli musiqi alətlərinin (saz, kamança, tar, tənbur və s.) hazırlanmasında ağacdan istifadəyə üstünlük verilmişdir. Ta qədim dövrlərdən bu günə qədər ağacdan hazırlanan musiqi alətlərindən indi də istifadə olunur. Həmin musiqi alətlərindən biri sazdır. Bildiyimiz kimi, sazın tarixi qədimlərə gedib çıxır. Saz hazırlayan ustalara sazbənd deyilir. Sazbənd sazı hazırlamaq üçün tut və qoz ağaclarından istifadə edir. Azərbaycanın qərb bölgəsində saz həmişə mühüm yer tutmuşdur. Sazın boğaz hissəsi qoz ağacından hazırlanır. Çanağın üst hissəsi nazik taxta parçaları ilə örtülür. Çanaq boğaz hissə ilə birləşdirilir. Səsin yaxşı çıxması üçün onun üst taxtalarında kiçik deşiklər açılır. Sazı çalmaq üçün istifadə olunan mizrab (təzənə) gilas və ya albalı ağacının qabığından hazırlanır.

***Açar Sözlər:*** *Türk, Ağac, Musiqi, Mədəniyyət*

**The Place of Wood in Making Musical Instruments**

**Abstract:** One of the important components of spiritual culture is music. One of the main points in music is the order of making musical instruments. Various materials are used in making musical instruments. One of them and the most important is wood. In particular, the use of wood was preferred in the production of stringed musical instruments (saz, kamancha, tar, tanbur, etc.). From ancient times until today, musical instruments made of wood are still used. One of those musical instruments is saz. As we know, the history of saz goes back to ancient times. Masters who make saz are called sazband. Sazband uses mulberry and walnut trees to make saz. Saz has always occupied an important place in the western region of Azerbaijan. The throat part of the saz is made of walnut wood. The upper part of the bowl is covered with thin pieces of wood. The pelvis is connected with the throat part. Small holes are made in its top boards for better sound. The mizrab (tazanah) used to play the saz is made from the bark of a cherry tree.

***Key Words:*** *Turkish, Wood, Music, Culture*

## Giriş

Türk xalqlarının tarixi etnoqrafiyasının, maddi və mənəvi mədəniyyətinin, adət-ənənələrinin, təsərrüfat həyatının, müxtəlif sənətkarlıq sahələrinin öyrənilməsi həmişə aktual olmuşdur və bu gün də öz aktuallığını qoruyub saxlamaqdadır.

Azərbaycan xalqı digər türk xalqları ilə ortaq bir mədəniyyətin yaradıcısı və daşıyıcısıdır. Erkən orta əsrlərdə bu xalqlar indiki qədər bir-birindən uzaqlaşmamış, onların maddi və mənəvi mədəniyyətləri də çox az fərqlənmişdir. "Kitabi-Dədə Qorqud", "Oğuznamələr", "Koroğlu" və s. kimi eposlar əksər türk xalqlarının ortaq mənəvi mədəniyyət nümunəsi olduğu kimi, onların həmçinin maddi mədəniyyətlərinin də ümumi, hamısı üçün eyni olan xüsusiyyətləri daha çox olmuşdur.

Azərbaycan xalqının orta və erkən orta əsrlərə aid tarixi etnoqrafiyasını öyrənərkən Mahmud Kaşğarinin "Divanü Lüğat-it-Türk" əsəri çox dəyərli və nadir tarixi qaynaqlardan biridir. Bu əsər Azərbaycan xalqının erkən orta əsrlərə aid tarixi etnoqrafiyasının araşdırılması işində tədqiqatların üstünə aydın işıq salır. Bu da tarixi etnoqrafiyamızın bir çox qaranlıq səhifələrini aydınlaşdırmağa yaxşı imkan verir. Məhz buna görə də Kaşğarinin "Divan"ı ümumtürk kontekstində Azərbaycan xalqının da məişət və mədəniyyətinin öyrənilməsində əvəzsiz ilkin qaynaqdır.

Türk xalqının həyatında musiqi mühüm yer tutmuşdur. Musiqi insanlara mənəvi qida vermişdir. Ona görə də türk xalqı boş vaxtlarında həmişə sözlü, musiqili məclislər qurmuşdur. Söz və musiqi ilə məşğul olan insanlara böyük sayğı göstərilmişdir. Qəhrəmanlıq dastanlarından gördüyümüz kimi, türk sərkərdələri həmişə döyüşə saz və qopuzla getmişlər. "Dədə Qorqud"da Dədə Qorqudun özü və Oğuz igidləri, "Koroğlu"da Koroğlu və dəliləri həmişə qopuz və saz gəzdirirlər, hətta qopuz və saz onları tanıdan əsas rəmz olur. Bu

[*] Bakı Avrasiya Universiteti, perinazsadiqli@yahoo.com

məlumatlardan aydın olur ki, türk xalqı çoxlu musiqi alətləri (qopuz, saz) yaratmış, onları daim təkmilləşdirmiş, müxtəlif mahnılar ifa etmiş, zəngin musiqi mədəniyyəti formalaşdırmışdır.

Mənəvi mədəniyyətin mühüm tərkib hissələrindən biri olan musiqi də əsas məqamlardan biri musiqi alətlərinin hazırlaması qaydasıdır. Musiqi alətlərinin hazırlanmasında müxtəlif materiallardan istifadə olunur. Onlardan biri və ən əsası ağacdır. Xüsusilə simli musiqi alətlərinin (saz, kamança, tar, tənbur və s.) hazırlanmasında ağacdan istifadəyə üstünlük verilmişdir. Ta qədim dövrlərdən bu günə qədər ağacdan hazırlanan musiqi alətlərindən indi də istifadə olunur. Həmin musiqi alətlərindən biri sazdır. Bildiyimiz kimi, sazın tarixi qədimlərə gedib çıxır. Saz hazırlayan ustalara sazbənd deyilir. Sazbənd sazı hazırlamaq üçün tut və qoz ağaclarından istifadə edir. Sazın hazırlanması bir neçə mərhələdən ibarətdir. İlk öncə saz düzəldiləcək ağac düyünsüz olmalıdır. Daha sonra ağacı kəsdikdən sonra onu bir müddət əlverişli hava şəraitində saxlayır. Daha sonra isə saz hazırlanan hissəni ayırır və yonur. İlk öncə sazın əsas hissəsi olan çanağ düzəldilir. Bəzən çanağı küp və çömçə də adlandırırlar. Çanağı hazırlamaq üçün əvvəlcə qabırğalar və ya yarpaqlar yonulur, daha sonra isə rəndələnib şümallanır. Sonra yarpaqlar qaynar suda bişirilir. Hazırlanmış yarpaqlar bir-birinə quraşdırılır.

Azərbaycanın qərb bölgəsində saz həmişə mühüm yer tutmuşdur. Sazın boğaz hissəsi qoz ağacından hazırlanır. Çanağın üst hissəsi nazik taxta parçaları ilə örtülür. Çanaq boğaz hissə ilə birləşdirilir. Səsin yaxşı çıxması üçün onun üst taxtalarında kiçik deşiklər açılır. Sazı çalmaq üçün istifadə olunan mizrab (təzənə) gilas və ya albalı ağacının qabığından hazırlanır.

Şumerlərin də zəngin musiqi mədəniyyəti olmuşdur. Onlar bu mədəniyyəti İkiçayarasında yaratmayıblar. Şumerlər bu mədəniyyəti İkiçayarasına Azərbaycandan, Xəzər sahillərindən, Qobustandan aparmış, zaman-zaman onu daha da təkmilləşdirib, zənginləşdirmişlər.

Şumerlərin musiqi alətlərinin zəngin bir kolleksiyası gil lövhələr üzərində gəlib bizə çatmışdır. Qəbirlərdən də xeyli musiqi alətləri tapılmışdır. Hazırda dünyanın ən iri muzeylərində İkiçayarasından tapılmış nəfəs, zərb və simli musiqi alətlərinin ya özü, ya da rəsmləri saxlanır. Şumerdə sazın şəklinin tapılması böyük bir hadisədir, çünki sazın və aşıq sənətinin tarixi haqqında Azərbaycanda və ondan kənarda hələ də yekdil fikir yoxdur. Bəzi alimlər və musiqi mütəxəssisləri aşıq sənətinin başlanğıcını XIII yüzilliklə bağlayır, digərləri onun təxminən beş min il yaşı olduğunu söyləyirlər. Birincilər aşıq sözünə ilk dəfə XIII yüzilliyin qaynaqlarında rast gəlinməsinə söykənirlər. İkincilər isə aşıq sənətinin, sazın bu qədər qısa zaman ərzində təkmilləşib, mükəmməlləşib XIV-XV yüzilliklərdəki səviyyəyə qalxmasının mümkünsüzlüyünü düşünürlər. Bəs kim haqlıdır? Bu sualın doğru cavabı İkiçayarasında aparılmış arxeoloji qazıntılar zamanı tapılmış gil lövhələr üzərindəki saz şəklindədir. Bu şəklin ən azı beş min il tarixi var və bu eyni zamanda aşıq sənətinin, sazın yaşıdır: beş min il!



1- Şəkil: Şumerdə tapılmış saz

Şumerdə tapılmış sazın ümumi görünüşü bizə çox şey deyir. Sazın şəklinə diqqətlə baxanda görürük ki, o bugünkü Azərbaycan sazının eynidir (1- şəkil).

Onların çanağı və qolu quruluşuna görə, bir-birindən qətiyyən seçilmir. Bu gün Azərbaycanda ölçülərinə görə sazın üç növü var: cürə saz (balaca saz), orta saz və ana saz (böyük saz). Sonuncuya tavar saz da

deyilir. Şumerdə tapılmış saz cürəyə daha çox oxşayır. Şəkil o qədər də keyfiyyətli deyil. Onun ən azı iki-üç min il torpaq altında qaldığını və xeyli korlandığını unutmamalıyıq.

Şumerdə tapılmış sazın pərdələri, aşıqları və tellərin çanağa bağlandığı yer görünmür. Şumer rəssamı bu xırdalıqları çəkməyə də bilərdi, lakin burada rəssamlığın yüksək səviyyədə inkişaf etdiyini nəzərə alsaq, səbəbi başqa yerdə axtarmalıyıq. İkinci səbəb gil lövhələrin neçə min il torpağın altında qalmağıdır. Sözsüz ki, gil lövhə bu müddət ərzində müəyyən qədər korlanmışdır. Şəklin özündən də aydın görünür ki, o keyfiyyətini xeyli itirmişdir. İndi həmin xırdalıqların görünüb-görünməməyi o qədər də önəmli deyil. Saz kimi bənzərsiz milli musiqi alətinin ən azı beş min illik tarixini təsdiqləmək baxımından bu şəklin möhürlü sənəddən daha böyük önəmi var.

Mahmud Kaşğarinin "Divan"ı türk xalqlarının orta yüzillikdə musiqi mədəniyyətini öyrənmək üçün əvəzsiz mənbədir. "Divan"da "yır-mahnı, məqam (musiqidə)" kimi izah olunmuşdur. Eyni zamanda "ol yır yırladı-o, şərqi söylədi. Bu söz çox zaman şeir, qəzəl mənasında işlənir" (Kaşğari, 2006c) "yırağu-çalğıçı, müğənni, şərqiçi" (Kaşğari, 2006c), "ər yırladı-adam melodiya qoşdu, şərqi oxudu" (Kaşğari, 2006c) ifadələri "Divan"da yırla bağlı rast gəlinən ifadələrdir. Yırağu sözünün izahını verərkən Ögəl, Mahmud Kaşğarinin izahlarından istifadə etmişdir və bu sözü iki mənada açıqlamışdır: çalğıçı və yır söyləyən, yırlayıcı. Bu ifadə XI yüzilliyə aid edilmişdir. Bu sözə daha sonrakı dövrlərə aid mənbələrdə də rast gəlirik. "Irlayıcı (yırlayıcı)-çalğı çalıp, ırlayıcı oldular" deyimi XIV yüzilliyə aiddir (Ögel, 1991). XVI yüzillikdə isə bu söz ilə bağlı "ırlağan-xanəndə və şərqi söyləyən" ifadəsinə rast gəlirik (Ögel, 1991).

Şor türklərində də tez-tez bu ifadəyə rast gəlinir: "bir ağzıyla destan söyledi (kayladı); bir ağzıyla da, yırladı" (Ögel, 1991). Qırğız türkləri dastanlardan parçalar söyləyənlərə "ırçı" yəni "yırçı" deyirmişlər (Ögel, 1991). Qırğız dilində ır, yır sözlərinin əvəzinə bəzən cır sözünə rast gəlinir. Eyni zamanda "yır, ır" ifadəsini həm şərqi, həm də melodiya ilə söylənilən şeirlər üçün işlətmişlər. Buna görə də bəzən şairlərə yırçı, qəhrəmanlıq dastanlarını söyləyənlərə isə ırçılar deyirdilər (Ögel, 1991). Türkiyənin Doğu Anadolu, Adana, Ilgın-Konyada şərqi söyləmə, İstanbulda şeir oxumaq, Urfa, Elazığda şərqi, türkü, Diyarbəkirdə musiqi məqamı, Ədirnədə şeir, Batı, Güney və Orta Anadoluda şərqi söyləmə anlamlarında bu sözün işləndiyini görürük (Ögel, 1991). Bütün bu deyilənlərdən belə nəticəyə gəlmək olar ki, yırçılar gözəl səsə malik şərqi söyləyənlər olmuşlar.

Cəng də türklərin yaratdıqları qədim simli musiqi alətlərindən biridir. Onun simlərinin sayı müxtəlif olmuşdur. Əvvəlcə altı simli cəngdən istifadə edilmişdir. Sonradan onun simlərinin sayı mahir sənətkarlar tərəfindən artırılmış, iyirmi birə çatdırılmışdır. Cəng ilk dəfə Şərqdə yaranmış, lakin Qərbdə də çox geniş yayılmışdır. Onun adına Nizami Gəncəvinin, Xaqani Şirvaninin, Qivami Mütərrizinin, Məhəmməd Füzulinin əsərlərində bir neçə dəfə rast gəlinir ki, bu da orta əsrlərdə cəngin bir musiqi aləti kimi türk xalqının mədəni həyatında mühüm yer tutduğunu aydın gostərir. Sazın "Çəngi" havasının öz adını cəng musiqi alətindən götürdüyü şübhə doğurmur. Bunu bir fakt da təsdiqləyir ki, II Şah İsmayılın dövründə yaşamış məşhur musiqiçi Sultan Məhəmmədə xalq Cəngi ləqəbi vermişdir. Sözsüz ki, sazın "Cəngi" havası ilə Sultan Məhəmmədin Cəngi ləqəbi eyni qaynağa bağlıdır. Şumerdə tapılmış musiqi alətləri arasında cəng də var. Şumerdəki cəngin bizə təkcə şəkli gəlib çatmamışdır. Ur şəhərində aparılmış arxeoloji qazıntılar zamanı aşkara çıxarılmış çoxlu qadın qəbirlərindən qiymətli daş-qaşlarla yanaşı, cəng musiqi aləti də tapılmışdır. Bu cənglər qadınların əllərində olduğuna görə, onları qadınların çaldıqlarını söyləyə bilərik. Yuxarıdakı şəkildə də cəng çalan iki nəfərdən biri ikişi, digəri qadındır. Şumerdən tapılmış musiqi alətlərinin sayca çoxluğu və mükəmməlliyi bu xalqın zəngin musiqi mədəniyyətinə malik olduğunu göstərir. Şumer musiqiçiləri arasında qadınların çoxluq təşkil etməsi də təsadüfi deyil. Şumerdə qadınlar kişilərlə eyni hüquqlu olmuş, onlarla çiyin-çiyinə işləmişlər. Ağşahlar sülaləsinin xaqanlarından biri Quba adlı qadın olmuşdur. Şumerdə qadın hüquqsuzluğunu təsdiqləyəcək

bir dənə də mətn tapılmamışdır. Əksinə, şumerlərin bir atalar sözündə deyilir: “Ananın sözünə Tanrının sözü kimi qulaq as”. Bu, “Dədə Qorqud” da dönə-dönə təkrarlanan “Ana haqqı-Tanrı haqqı” deyimi ilə necə də yaxından səsləşir. Hər iki deyimdə ana Tanrı səviyyəsinə yüksəldilmiş, Tanrı qədər uca tutulmuşdur. Ona görə musiqiçilər arasında qadınlara tez-tez rast gəlinməsinə təbii baxmaq lazımdır.

Maraqlıdır ki, şumer və türk xalqlarının musiqi alətləri, həmçinin yaratdıqları musiqi mədəniyyəti heyrət doğuracaq qədər yaxındır. Bu qədər yaxınlıq heç vaxt təsadüfi ola bilməzdi. Şumer dilinin türk dili, şumerlərin də türk kökənli olduqlarını təsdiqləyən təkzibedilməz arqumentlər mövcuddur. Musiqi mədəniyyətinin bu qədər yaxınlığı da hər iki xalqın genetik qohumluğunu təsdiqləyən tutarlı faktlardan biridir.

“Divan”da adı çəkilən “çənq-çəng, zəng” (Kaşğari, 2006c) orta yüzillikdə Azərbaycanda da geniş yayılmış musiqi alətlərindən biri olmuşdur. Quruluş etibarı ilə sadə görünən cəng çox qədim dövrlərdən bəri geniş yayılan simli-yaylı musiqi alətidir. Cəng qövsşəkilli olub qoldan, düz dayanacaqdan və onlara bağlanan tellərdən ibarətdir. Bu musiqi alətini əsasən qadınlar çalmışlar (Azərbaycan etnoqrafiyası, 2007). Cəng əsasən 81 simdən ibarət olmuşdur. Bu musiqi aləti sarı ərik ağacından hazırlanırdı (Bünyadov, 1993). Çenq və ya çanq sözünə türk musiqi mədəniyyətində tez-tez rast gəlinir. Əsasən zəng, çan və ya zil mənalarında işlənmişdir (Ögəl, 1991). Uyğur miniatürlərində cəng və ya yatık sazlarının dəyənək ilə çalındığını görürük. Bu çalğılar türk saraylarında çalınan sazlar olmalıdır. Əbu Xəyyam isə bunun uda bənzədiyini qeyd etmişdir (Ögəl, 1991).

Qopuz xüsusi ağac növündən hazırlanır. Sadə quruluşlu qopuzun kiçik çanağı, çanağın üzərində ipək tellərin bərkidilməsi üçün sümük və ya ağacdan düzəldilmiş bənd və baş tətəfində kökləmək, telin digər ucunu bərkitmək üçün ağac aşıqlar olur (Azərbaycan etnoqrafiyası, 2007). “Divan”da “kupzadı-ud çaldı” (Kaşğari, 2006a), “kubuz-qopuz, uda bənzər bir çalğı aləti” (Kaşğari, 2006a), “kubuzluğ kişi-qopuzlu adam” (Kaşğari, 2006a), “kızlar kubzaşdı-qızlar qopuz çalmaqda yarışdılar” (Kaşğari, 2006b), “kobuz kubzaldı-qopuz çalındı” (Kaşğari, 2006b) kimi ifadələrdən aydın olur ki, qopuz türk xalqlarının həyatında mühüm yer tutmuşdur. Qopuz türklərdə geniş yayılmış musiqi alətlərindən biridir. Qopuz daha çox yayla çalınan musiqi aləti olub, həm də barmaqla çalına bilirdi. Deмək olar ki, bütün sazlar bir qopuzdur (Ögel, 1991). “Dədə-Qorqud” dastanında qopuzun adına tez-tez rast gəlinməsi böyük maraq doğurur. Dastanda “-Mərə kafirlər! Qopuzum gətirin, sizi öyəyin-dedi. Vardılar, qopuzu gətirdilər” (Kitabi-Dədə Qorqud, 1978). Qopuz Oğuzlar üçün çox müqəddəs olmuşdur. Əlində qopuz olanı düşmən də olsa, bağışlayıblar. Onlar qopuza and içiblər.

Altayların quzeyindəki Şor türklərində komus, kobız adlanan sazlar ikitellidir. Qırğız türklərində komus və ya komuz yəni qopuz 3 telli sazdır (Ögel, 1991). Çuvaş türkcəsində “kopsamak, kobzadı, kobzaldı” kimi fellər də işlənmişdir (Ögel, 1991).

Qızıl-Orda vilayətinin tarix-ölkəşünaslıq muzeyində saxlanan XVIII yüzilliyə aid qopuzun korpusu tayqulp formasında olub, əyilmiş boğazdan ibarətdir. Böyük yastı başlığı isə metal asma bəzəklə bəzənmişdir. Korpusun aşağı hissəsinə isə dəridən üz çəkilmişdir (Джанибеков, 1982).

“Divan”da “buçı kubuz” simli udlardan biri kimi izah olunmuşdur. Bu qaz köksü (bərbət) adı verilən çalğı alətlərindən biridir” (Kaşğari, 2006c). Bərbət Azərbaycanda yayılan ən qədim musiqi alətlərindəndir. Bərbətin çanağı dördkünc olub, səkkiz simlidir (Azərbaycan etnoqrafiyası, 2007). Ögəl (1991) qeyd edir ki, XI yüzillikdə bu söz Mahmud Kaşğari tərəfindən işlənmişdir. İbn Mühenna türkcə “kobuzçı” sözünü ərəbcə “barbatı” yəni bərbət adlanan sazı çalan ifadəsi ilə qarşılaşdırırdı. Bu ifadəyə qərbdə kuman türklərində də rast gəlirik.

“Divan”da eyni zamanda “buçi-çox inləyən ud” ifadəsi də var (Kaşğari, 2006c). T.Bünyadov uddan bəhs edərkən qeyd etmişdir ki, ərəblər uda “əlud”, farslar isə “rud”

deyirmişlər. Deməli, ud sözü türk dilindən fars dilinə keçərkən rud, ərəb dilinə keçərkən əlud şəkillərinə düşmüşdür. Bu sözlərin hər ikisinin tərkibində "ud" kökü saxlanmışdır. Arxeoloji qazıntılar zamanı Bərdə şəhərindən tapılan qabın üzərindəki təsvir xüsusilə maraqlıdır. Qabdakı təsvir belə izah olunmuşdur: alətin çanaq hissəsi qazma üsuli ilə dörd sektora bölünərək, çanağın mərkəzindən keçən qoşa xətt alətin qolundan keçir və axıradək davam edir. Həmin xətt alətin başlığında sona yetir. Eyni zamanda güman etmək olar ki, simlərin bərkidilməsi və boşaldılması üçün aşıqlar da olmuşdur. Bu təsvirdən aydın olur ki, bu, ud adlanan musiqi alətidir (Nuriyev, 2001).

"Divan"da "tümrük-Oğuzca dəf, dümrük" kimi izah olunmuşdur (Kaşğari, 2006a). Dəf orta yüzillikdə Azərbaycanda geniş yayılan zərb musiqi alətlərindən biri olmuşdur. Dəf dairəvi formada olub, bir tərəfi boş olur, digər üzünə isə nazik dəri çəkilir. Ağacdan düzəldilən sağanağı nazikdir. İçəri tərəfdən zınqırovlar və metaldan düzəldilmiş pulcuqlar sallanır (Azərbaycan etnoqrafiyası, 2007).

"Divan"da "ikəmə-saz, qopuz kimi çalınan musiqi aləti" (Kaşğari, 2006a), "ikəmə-bir çalğı növü" (Kaşğari, 2006c) ikəmə ilə bağlı verilmiş ifadələrdir. "İkeme" və ya "ekeme" XI yüzilliyin II yarısında Kaşğarlı Mahmudun bu adı verdiyi türk sazıdır.

"Divan"da "sıbızğu-düdək, tütək, ney" kimi qeyd olunmuşdur (Kaşğari, 2006a). "Divan"da verilmiş "ol subuzğu ötürdi-o, tütək öttürdü, çaldı" (Kaşğari, 2006a) ifadələrindən aydın olur ki, tütək orta yüzillikdə geniş yayılmışdır.

Nəfəsli musiqi alətlərinin hazırlanması zamanı müxtəlif növ ağaclardan, qarğı, qamışdan və.s materiallardan istifadə etmişlər. Mənbələr əsasən onu deyə bilərik ki, tütək ən qədim nəfəsli musiqi alətlrəindən biridir. Araşdırmalardan aydın olur ki, hələ də Azərbaycanın bəzi bölgələrində xüsusilə taxıl və ya qamışın özəyini əl ilə dartıb çıxarır, buğum hissəsini qırdıqdan sonra deşiyin ağzını azacıq əzərərk sadə çağlı aləti hazırlayırlar. Beləliklə üfürdükcə nazik cır səs alınır, hətta bəzən kiçik dəliklər açaraq müxtəlif havalar çalırdılar. Zaman keçdikcə tütəklər ağac və qarğı zoğundan hazırlandı. Sadə tütəklərin hazırlanması isə daha bəsit və asan idi. Bunun üçün quru qarğını kəsib ucunda dil, üstündə isə dəliklər açırlar, hansı ki, səslənməni nizama salır (Azərbaycan etnoqrafiyası, 2007).

Azərbaycanda zərb musiqi alətlərinin tarixi daha qədimlərə gedib çıxır. Dünyadakı ilk musiqi aləti Qobustandakı qavaldaşdır desəm yəqin ki, heç kəsdə şübhə yaranmaz. Bu daş insanların hələ musiqi alətlərini yaratmadıqları bir dövrdən qalmışdır. Qavaldaşı insan yox, təbiətin özü yaratmışdır. Bizim ulu əcdadlarımızın hünəri onda olmuşdur ki, bu daşın musiqisini kəşf etmişlər. Dünyada Qobustandan qədim mədəniyyət ocağı yoxdur. O dünya mədəniyyətinin, o sıradan da musiqi sənətinin beşiyidir. Qədim dövrlərdən Azərbaycanda zərb musiqi alətlərindən təbil, kus, nağara, qaval və s. adlarını çəkmək olar. Təbil musiqi alətinin ən qədim forması əsasən ağacdan hazırlanırdı (Azərbaycan etnoqrafiyası, 2007).

"Divan"da "küvrüg-köz, davul" ifadəsinə rast gəlinir (Kaşğari, 2006a). Uyğurlarda "küvrüğ üni" (davul səsi) hökmdarın şöhrəti ilə bərabər tutulurdu. Bir növ hökmdar sayılan göy və yer tanrılarının ayinlərində də davul çalınırdı (Türk Ansiklopedisi, 1984). "Divan"da "kög-oxunanda səsin yüksəlib-alçalması, zil-bəm. Ər kögləndi-adam səsini alçaldıb-yüksəldərək, şərqi oxudu" (Kaşğari, 2006c), "ər köglədi-adam çalıb-oxudu" (Kaşğari, 2006c) ifadələrində işlənən "kög" sözünün fonetik variantı olan "küğ" (şərqi, məqam, dini nəğmələr) sözünə uyğur musiqi mədəniyyətində də rast gəlirik. Bu bir-birini ardıcıl olaraq izləyən, fəsil şəklində də söylənir və ya çalınırdı (Türk Ansiklopedisi, 1984).

"Xan tuğ urdu-xan növbə davulu vurdurdu, qarovul dəyişdirmə barabanı çaldı" (Kaşğari, 2006b), "tuğ-xaqanın yanında çalınan nağara (kös) və davul. Xan tuğ urdu-xan növbə davulun vurdu" (Kaşğari, 2006c), "tuğ uruldu-davul vuruldu" (Kaşğari, 2006a) tuğla bağlı "Divan"da rast gəlinən ifadələrdir. Ögəlin tuğ ilə bağlı olan izahları Mahmud Kaşğarinin izahları ilə eyniyyət təşkil edir.

"Divan"da eyni zamanda tovıl-davul, nağara musiqi alətinin adına da rast gəlirik (Kaşğari, 2006c). Azərbaycanda geniş yayılmış zərb musiqi alətlərindən biri də nağaradır. "Dədə-Qorqud" dastanında "Guppur-guppur davullar, nəğarələr çalındı" (Xəlilova, 2011) davul, nağara kimi musiqi alətlərinin adlarına rast gəlinməsi bu musiqi alətlərinin qədimliyini göstərir. Nağaranın qədimliyini təsdiqləyən əsas fakt ona e.ə. V-IV minilliklərdə Şumerlərdə rast gəlinməsidir (Sadıq, Sadıqlı, 2017: 174).

Şumerdə tapılmış milli musiqi alətlərindən biri də nağaradır. O da bizim bugünkü nağaranın eynidir. Hətta onun çənbərinin üstünə naxışlar da vurulmuşdur. O da qaval kimi, dəridən hazırlanmışdır (2- şəkil).



**2- Şəkil:** Nağara

Nağara musiqiçinin sinəsindədir, ola bilsin ki, çalan adam onu boynundan asmışdır. Onu əllərilə tutmadığı aydın görünür. O, hər iki əlilə nağaranı çalır. Nağara da türklərin qədim zərb musiqi alətidir.

**Nəticə**

Bütün bunlar onu deməyə əsas verir ki, türk xalqlarının bugünkü maddi və mənəvi mədəniyyəti bir ilkin kökdən qidalanmış, bir ilkin mənbəyə bağlı olmuş, minillər boyu onların hamısının ortaq mədəniyyəti kimi yaşamışdır. Bu gün də türk xalqlarının əksəriyyətinin maddi və mənəvi mədəniyyətində həmin ortaqlığın izlərini aydın şəkildə görmək olur.

Göründüyü kimi, Mahmud Kaşğarinin "Divan"ında türk xalqlarının, həmçinin Azərbaycan xalqının musiqi mədəniyyətini öyrənmək üçün zəngin material vardır. "Divan"da adları çəkilən bəzi musiqi alətlərinə "Kitabi-Dədə Qorqud"da və Şumer mətinlərində rast gəlinməsi isə böyük əhəmiyyət kəsb edir. Maraqlıdır ki, şumer və türk xalqlarının musiqi alətləri, həmçinin yaratdıqları musiqi mədəniyyəti heyrət doğuracaq qədər yaxındır. Bu qədər yaxınlıq heç vaxt təsadüfi ola bilməzdi. Şumer dilinin türk dili, şumerlərin də türk kökənli olduqlarını təsdiqləyən təkzibedilməz arqumentlər mövcuddur. Musiqi mədəniyyətinin bu qədər yaxınlığı da hər iki xalqın genetik qohumluğunu təsdiqləyən tutarlı faktlardan biridir. Araşdırmalar da bu fikri söyləməyə əsas vermişdir ki, bütün türk xalqlarının mədəniyyəti bir ilkin başlanğıcdan təşəkkül tapmışdır.

**ƏDƏBİYYAT**

"Kitabi-Dədə Qorqud" (1978). /Tərtib edəni Həmid Araslı/. Bakı: Gənclik, 184 s.

Azərbaycan etnoqrafiyası (2007). 3 cilddə. III c., Bakı, 568 s.

Bünyadov, T. (1993). *Əsrlərdən gələn səslər*. Bakı: Azərnəşr, 264 s.

Xəlilova, Mehparə (2011). "Otaqların daxili səhmanında sənətkarlıq məmulatının yeri". *Azərbaycan Arxeologiyası və Etnoqrafiyası jurnalı*, 1: 224-227.

Kaşğari, Mahmud (2006a). "Divanü Lüğat-it-Türk". 4 cilddə, I c. /Tərcümə edən və nəşrə hazırlayan: Ramiz Əskər/. Bakı: Ozan, 512 s.

Kaşğari, Mahmud (2006b). "Divanü Lüğat-it-Türk". 4 cilddə, II c. /Tərcümə edən və nəşrə hazırlayan: Ramiz Əskər/. Bakı: Ozan, 400 s.

Kaşğari, Mahmud (2006c). "Divanü Lüğat-it-Türk". 4 cilddə. III c. /Tərcümə edən və nəşrə hazırlayan: Ramiz Əskər/. Bakı: Ozan, 400 s.

Nuriyev, A. (2001). "Milli musiqimizin nadir nümunəsi tapıntısı". *Elmi axtarışlar*. VI toplu, s. 209-210.

Ögel, Bahaeddin (1991). Türk Kültür Tarihine Giriş. Türk halk musıkisi aletleri (Uyğur devletinden Osmanlılara). IX c, Ankara, 486 s.
Sadıq, İslam, Sadıqlı, Pərinaz (2017). "Şumerdə musiqi". *"Qobustan" jurnalı*. Bakı. 1(174): 11-14.
Türk Ansiklopedisi (1984). "Uyğur Sanatı". C. XXXIII, Ankara, s.131-140.
Джанибеков, У. (1982). *Культура казахского ремесла*. Алма-Ата, 144с.